## Nəqliyyatda vahid kart ödəmə sisteminə hazırlıq gedir

Ölkə yollarında nəqliyyatın hərəkətinin tənzimlənməsi və problemlərin aradan qaldırılması məqsədilə ötən ilin sonlarından Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi fəaliyyətə başlayıb. Mərkəzin təhlükəsizliyi, ətraf mühitin qorunmasını, effektivliyi və rahatlığı təmin edən texnologiya əsasında fəaliyyət göstərməsi nəzərdə tutulub. Bu texnologiya nəqliyyat informasiyasının birləşmiş şəbəkəsinə, nəqliyyatın monitorinqi və idarə edilməsinə, mövcud vəziyyətin təhlili və optimallaşdırılmasına və digər proseslərin yerinə yetirilməsinə əsaslanır.

Mərkəzin fəaliyyət istiqamətlərindən biri də nəqliyyatda gediş haqlarının kart vasitəsilə ödənilməsinə hesablanıb. Hələ may ayında Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi nəqliyyatda vahid kart ödəmə sisteminə keçməyə hazırlaşdığını elan etmişdi. Mərkəzin məlumatında qeyd edilirdi ki, vahid kart ödəmə sisteminin ilk sınaq testi keçirilib və test müddəti başa çatıb.

Vahid kart ödəmə sisteminə sərnişinlər tərəfindən ictimai nəqliyyatdan istifadəyə görə haqların nağdsız ödənilməsini təmin edən bir mexanizm kimi baxılır. Gözlənilir ki, bu sistemin tətbiq olunması, ilk növbədə, insanların rahatlığını təmin edəcək, eləcə də nəqliyyatda sərnişindaşımanın işini rahatlaşdıracaq. Bu müasir ödəmə sistemindən metro, taksi və avtobuslarda istifadə olunacaq. Vahid kart ödəmə sistemi tətbiq ediləndən sonra sərnişinlər xüsusi kartı avtobus və taksilərdə quraşdırılacaq terminallara daxil edərək, gedəcəkləri məsafədən asılı olaraq müvafiq ödəmə apara biləcəklər. Sərnişinlər, həmçinin, dayanacaqlarda quraşdırılmış terminallar vasitəsilə kartdakı balansı artıra, öyrənə və digər əməliyyatlar apara biləcəklər. Mərkəzin məlumatında sistemin bu ilin payızından işə düşməsinin planlaşdırıldığı bildirilir.

Bu prosesdə maraqlı nöqtələrdən biri sürücülər və sahibkarlarla münasibətlərin yeni prinsiplərə keçirilməsidir. Nəqliyyatı İntellektual İdarəetmə mərkəzinin mətbuat katibi Zülfiyyə Əlizadə qəzetimizə açıqlamasında bildirdi ki, mərkəz hazırda sistemin testlərinin təhlili ilə məşğuldur. Hazırda paralel olaraq sürücülərə əməkhaqqının hansı formada ödənilməsi ilə bağlı prosedurlar hazırlanır: «Maaş sistemi nəzərdə tutulub. Amma məsələ dəqiqləşdirildikdən sonra bu barədə ictimaiyyətə məlumat veriləcək. Hazırda sürücülərlə bu istiqamətdə müəyyən işlər aparılır, treninqlər keçirilir. Hələ ki, heç bir narazılıqla üzləşməmişik».

Nəqliyyatda gediş haqqının kart vasitəsilə ödənilməsinə keçid barədə sərnişinlərin də mövqeyini öyrəndik. Sərnişin Qədim Həsənov hesab edir ki, nəqliyyatda gediş haqlarının kart vasitəsilə ödənilməsi sərnişinlər üçün çox sərfəli olar: «Əvvəllər Mərdəkandan «Qara Qarayev» metrostansiyasına qədər gedişhaqqı 40 qəpik idi. Sonradan Tarif Şurası qiyməti dəyişərək 35 qəpik etdi. Lakin indiyə qədər sürücülərə verilən 40 qəpikdən 5 qəpik qaytarılmır. Nəqliyyatda kartla ödəmə reallaşarsa, bizim hər dəfə itirdiyimiz 5 qəpiklər kartımızda qalar. Bu baxımdan, nəqliyyatda kartla ödəməni sərnişinlər üçün sərfəli hesab edirəm».

Rəylərini öyrəndiyimiz sərnişinlərin əksəriyyəti kart sisteminə keçidlə bağlı müxtəlif problemlərin də yaranacağını (məsələn, sərnişinlərin sıx olduğu avtobuslarda bunun həyata keçirilməsinin çətin olacağı kimi) qeyd etməklə yanaşı, bunu perspektivli bir addım hesab edirlər.

Hər halda, belə bir sistemin işə düşməsi nağdsız ödənişlərə keçid sahəsində maraqlı bir təcrübə olmaqla bərabər, insanların təhlükəsizliyi üçün də böyük töhfə ola bilər: indi şəhər nəqliyyatının insan həyatı üçün risk yaradan cəhətlərindən biri sürücülərin yolboyu pul saymasıdır...

AYTƏN